# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2013-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat MƏRUZƏSİ

(Əvvəli 3-cü səhifədə).

Ölkəmizin birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti, Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycanda həyata keçirilən "Talassemiyasız həyat naminə" proqramı layihəsi çərçivəsində mərkəzdə 12 mart tarixdə qan vermə aksiyası keçirilmiş və bu aksiyada 70 nəfərin iştirakı nəzərdə tutulmasına baxmayaraq 265 nəfər iştirak etmişdir

Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən ilin əvvəlindən yoluxucu xəstəliklərin qarşısının alınması, sanitar profilaktiki tədbirlərin həyata keçirilməsi məqsədi ilə ayrı-ayrı sahələr və yoluxucu xəstəliklər üzrə kompleks tədbirlər həyata keçirilir.

Yeni doğulan bütün uşaqların vərəm əleyhinə BSJ peyvəndinə cəlb edilməsi üçün 4090 doza peyvənd materialı alınıb müalicə profilaktika müəssisələrinə verilmişdir.

Aparılmış profilaktik tədbirlərin nəticəsidir ki, son 10 il ərzində rayonda uşaqlar arasında "Difteriya", "Göy ösgürək", "Tetanus", "Qızılça", "Parotit", "Məxmərək" kimi idarə oluna bilən yoluxucu xəstəliklər qeydə alınmamışdır.

2013-cü ilin müvafiq dövründə rayon GEM-nin bakterioloji laboratoriyasında yoluxucu xəstəliklərin aşkar edilməsi məqsədilə 80 müayinə aparılmışdır. Bu müayinələr zamanı törədicisi məlum olan 9 kəskin bağırsaq infeksiyası, törədcisi məlum olmayan 6 kəskin bağırsaq infeksiyası, 2 ilkin brüsellyöz və 15 xroniki brüsellyözlu xəstə aşkar edilmişdir.

Sanitar müayinələri zamanı sanitar qaydalarını pozduğuna görə ictimai iaşə, ticarət və digər xidmət müəssisələrində işləyən 4 nəfər fiziki şəxs cərimə olunmuş, sanitar tələblərinə cavab verməyən 1 obyektin fəaliyyəti müvəqqəti olaraq dayandırılmışdır.

Rüb ərzində 1501 nəfər obliqat qrup tibbi müayinəyə cəlb olunmuşdur.

Gənclər və İdman İdarəsi tərəfindən 2013-cü ilin I rübü ərzində 16 tədbir həyata keçirilmişdir. Bunlardan 9 tədbir gənclərlə iş sahəsini, 7 tədbir isə kütləvi bədən tərbiyəsi və idman sahəsini əhatə edir.

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən keçirilən respublika tədbirlərində qəbələli gənclərin iştirakı təmin olunmuşdur. Belə ki, gənclərlə iş sahəsində respublika üzrə keçirilən 5 tədbirdə, idman sahəsi üzrə isə 13 yarış və birincilikdə idmançılarımız rayonumuzu təmsil etmişlər.

Qəbələ Olimpiya İdman Kompleksi MMC tərəfindən də İdmanın inkişaf etdirilməsi, Olimpiya hərəkatının genişləndirilməsi, gənclərin kütləvi şəkildə idmana cəlb olunması, əhalinin bütün təbəqələri arasında sağlam həyat tərzinin formalaşdırılması istiqamətində işlər davam etdirilir.

2013-cü ilin birinci rübündə 2095 nəfər kompleksin xidmətlərindən istifadə etmişdir.

Qəbələ Olimpiya İdman Kompleksində 2013 - cü ilin yanvar ayında Boks üzrə kişilərdən ibarət Respublika Milli Komandası, fevral ayında isə Boks üzrə qadınlardan ibarət Respublika Milli Komandasının təlim-məşq toplanışı keçirilmişdir.

Qəbələ peşə məktəbində traktorçu maşinist, mexaniki yığma çilingəri, tikişçi, mühasib, fərdi kompyuter operatoru, avtomobil çilingəri, inşaatçı dülgər, xarrat peşələri üzrə kadrlar hazırlanır. Ötən dövr ərzində məzunların işlə təminatı 69,9 faiz olmuşdur ki, bu da əvvəlki illərə nisbətən xeyli çoxdur.

Qəbələ rayon Uşaq və Ailələrə Dəstək Mərkəzində 2013-cü ilin birinci rübü ərzində xüsusi qayğıya ehtiyacı olan 57 nəfər uşaq qeydiyyata alınmışdır. Həmin uşaqlara hüquqlarının bərpa olunması və müalicələrinin təmin olunması istiqamətində müvafiq köməkliklər göstərilmişdir.

2013-cü ilin birinci rübündə aqrar sahədə də xeyli iş görülmüşdür. Belə ki, 2012-ci ilin dekabr ayında 1285 nəfər torpaq mülkiyyətçilərinə hesablanan 760601 manat vəsait rüb ərzində plastik kartlar vasitəsilə sahiblərinə çatdırılmışdır.

Torpaq sahibləri tərəfindən indiyədək 347 ha sahədə yazlıq bitkilər əkilmişdir ki, bunun da 212 hektarını kartof , 47 hektarını tərəvəz, 88 hektarını isə birillik və çoxillik otlar təşkil etmişdir. Yazlıq bitkilərin əkini davam edir.

Rayon aqrokimya laboratoriyası tərəfindən cari ilin birinci rübündə mövcud olan əkin sahələrində torpağın münbitliyini öyrənmək məqsədilə 1871 nümunə götürülərək laboratoriya analizindən keçirilmiş və nəticələri barədə torpaq mülkiyyətçilərinə məlumat verilmişdir.

Rayon Bitki Mühafizə Mərkəzi tərəfindən ziyanvericilərə və alaq otlarına qarşı 2750 hektar, gəmiricilərə qarşı mübarizə məqsədi ilə isə 940 hektar sahə dərmanlanmışdır.

Dövlət Toxum Müfəttişliyində 2013-cü ilin birinci rübündə fiziki şəxslər tərəfindən laboratoriya analizinə gətirilmiş 2,7 ton qarğıdalı, 25 ton kartof və digər toxum nümunələri yoxlanılmış və müvafiq rəylər verilmişdir.

Meşələrin mühafizəsi və bərpası müəssisəsi tərəfindən ötən dövr ərzində 11 hektar sahədə meşə əkini, 105 hektar meşə fondu torpaqlarında isə xidmət işləri aparılmışdır.

Qızılbalıqyetişdirmə zavodunda 90 min ədəd balıq körpəsi alınmışdır. Hazırda həmin balıqların yetişdirilməsi istiqamətində işlər davam etdirilir.

Heyvandarlıq sahəsində də əhəmiyyətli dirçəliş hiss edilir. Hazırda rayon üzrə iri buynuzlu mal-qaranın sayı artaraq 52715 başa, qoyun-keçilər 219589 başa, donuzların sayı 989 başa çatmışdır.

Keçən ilin müvafiq dövrü ilə müqayisədə heyvandarlıq məhsulları istehsalı da xeyli artmışdır. Belə ki, ət istehsalı 13 ton artaraq 1121 tona, süd istehsalı 5 ton artaraq 5619 tona, yumurta istehsalı isə 407 min ədəd artaraq 3112 min ədədə çatmışdır. Hazırda əhalinin quş əti və yumurtaya olan tələbatını ödəmək məqsədi ilə rayonda əvvəl mövcud olmuş broyler-quşçuluq kompleksi təmir olunur. Kompleksin 2013-cü il ərzində istifadəyə verilməsi nəzərdə tutulmuşdur.

Rayonda mal-qaranın damazlıq keyfiyyətlərinin yaxşılaşdırılması üçün 8 süni mayalama məntəqəsi fəaliyyət göstərir. Rüb ərzində 908 baş inək və düyələrdə süni mayalama aparılmışdır ki, bu da yüksək məhsuldar heyvanların əldə olunmasına imkan yaradacaqdır.

Baytarlıq idarəsi və Zona Baytarlıq laboratoriyası tərəfindən heyvanların yoluxucu xəstəliklərə tutulmaması üçün vaxtaşırı müayinə və profilaktika işləri aparılır. Hal-hazırda rayonda epizotik durum demək olar ki, sabitdir. 2013-cü ilin birinci rübü ərzində 13 baş iri buynuzlu heyvanın brüsellyöza qarşı müayinə zamanı xəstə olduğu müəyyən edilmişdir ki, həmin heyvanlar da kəsilərək təsərrüfatdan çıxarılmışdır. Mal-qarada digər yoluxucu xəstəliklər müşahidə edilməmişdir.

Bakı şəhərində təşkil edilən kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarında rayonumuzun kənd təsərrüfatı məhsulları istehsalçıları da fəallıq göstərir. 2013-cü ilin birinci rübü ərzində həmin yarmarkalarda 21 ton tumlu, 22 ton qərzəkli, 0,3 ton çəyirdəkli meyvələr satılmışdır. Məhsul istehsalçılarının satış yarmarkalarında iştirakı davam edir.

Hazırda rayonda 5603 hektar bağ, 406 hektar üzüm plantasiyası mövcuddur. Rüb ərzində bağlara və üzüm sahələrinə aqrotexniki qulluq işləri davam etdirilmişdir.

**Hörmətli toplantı iştirakçıları!**

2013-cü ilin "İnformasiya kommunikasiya texnologiyaları ili" elan olunması ilə əlaqədar rayonda informasiya şəbəkələri genişləndirilmişdir. Rayon icra hakimiyyətində müasir informasiya texnologiyalarından istifadə olunmasının zəruriliyi nəzərə alınaraq, vətəndaşların müraciətlərinə baxılmasının operativliyini təmin etmək məqsədi ilə elektron poçtlar yaradılmışdır. Elektron poçt ünvanlarına göndərilən ərizə və şikayətlər dərhal araşdırılaraq onlar barədə müvafiq tədbirlər görülür.

2013-cü ilin birinci rübündə rayon icra hakimiyyəti başçısı aparatına Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından 7-si nəzarət qaydasında olmaqla 99, Milli Məclisdən 4, Nazirlər Kabinetindən 4, mərkəzi icra orqanlarından 29 və 9 ədədi qrup halında olmaqla vətəndaşlar tərəfindən 110 ərizə daxil olmuşdur.

Eyni zamanda icra hakimiyyətinin başçısı tərəfindən aparatda 342 nəfər vətəndaş qəbul edilmişdir.

2013-cü ilin birinci rübü ərzində yaşayış məntəqələrində 7 səyyar qəbul-görüş keçirilmiş, həmin görüşlərdə 1131 nəfər iştirak etmişdir. Qəbullarda 79 nəfər çıxış edərək müxtəlif təkliflər irəli sürmüşlər.

İrəli sürülən təkliflərdən 65-i həll edilmiş, 14 məsələnin həlli isə respublikanın mərkəzi icra orqanları tərəfindən həll edilməli olduğuna görə həmin müraciətlərlə əlaqədar müvafiq təşkilatlar qarşısında məsələ qaldırılmışdır.

**Hörmətli konfrans iştirakçıları!**

Nazirlər Kabinetinin iclasındakı yekun nitqində qarşıda duran vəzifələrdən danışan cənab İlham Əliyev ötən illərdə olduğu kimi 2013-cü ildə də həm sosial, həm də iqtisadi sahələrdə yaxşı nəticələrin əldə olunacağına əminliyini bildirərək demişdir: "Çox iş görülübdür. Amma görüləcək işlər çoxdur. Ona görə hesab edirəm ki, üçüncü dövlət proqramının hazırlanması ilə bağlı biz daha da fəal işləməliyik".

Cənab Prezident qarşıda duran vəzifələrdən birinin də iqtisadiyyatın şaxələndirilməsi və infilyasiyanın birrəqəmli səviyyədə saxlanılmasından ibarət olduğunu vurğulayıb.

Bununla bərabər istehsal sahələrində sağlam rəqabət mühitinin formalaşdırılması, inhisarçılığa qarşı daha ciddi addımların atılması önə çəkilib. İclasda həmçinin ixracın artırılması və daxili bazarın təmin edilməsi üçün rəqabət qabiliyyətli məhsulların istehsalının genişləndirilməsi məqsədi ilə Sahibkarlara Kömək Milli Fondunun xətti ilə 250 milyon manat məbləğində vəsaitin ayrıldığı da dövlət başçısı tərəfindən qeyd olunmuşdur.

(Ardı 5-ci səhifədə).